*Qədim Diyar Beynəlxalq Elmi Jurnal.* İyun 2026, Cild: 8, Sayı: 6, s. 291−295
*Ancient Land International Scientific Journal.* June 2026, Volume: 8, Issue: 6, pp. 291−295
DOI: https://doi.org/10.36719/2706-6185/61/291-295

# Ətraf mühitin yeniyetmə qızların tərbiyəsinə təsiri və çağırışlar

**Fatimə Ağabalayeva**

***Xülasə.*** *Yeniyetmə qızların tərbiyəsində ətraf mühitin rolu çoxşaxəli və mürəkkəb bir proses kimi qiymətləndirilir. Bu dövr həm psixoloji, həm də sosial baxımdan fərqlidir və qızların şəxsiyyətinin formalaşmasında ailə, məktəb və sosial mühit bir-biri ilə sıx əlaqədə təsir göstərir. Ailə mühiti, xüsusilə ilk illərdə qızların emosional sabitliyi, dəyərlər sistemi və davranış modellərinin formalaşmasında əsas rol oynayır. Atalıq və analıq münasibətləri, valideynlərin tərbiyə yanaşmaları və ailə strukturu yeniyetmə qızların gələcəkdə özünə inamlı, məsuliyyətli və sosial cəhətdən çevik fərdlər kimi yetişməsinə şərait yaradır. Məktəb isə yalnız bilik əldə etmə platforması deyil, həm də sosiallaşmanın, intellektual inkişafın və kollektiv içində davranış normalarının öyrənildiyi mühüm mühitdir. Məktəb mühiti qızların sosial bacarıqlarını, liderlik potensialını və ətraf mühitlə uyğunlaşma qabiliyyətini inkişaf etdirir.*

*Eyni zamanda, geniş sosial mühit və informasiya məkanı da yeniyetmə qızların tərbiyəsinə əhəmiyyətli təsir göstərir. Dost çevrəsi, mədəni təsirlər, media və rəqəmsal platformalar qızların dünyagörüşünün, davranış modellərinin və cəmiyyətlə münasibətlərinin formalaşmasında mühüm amillərdən hesab olunur. Sosial və psixoloji baxımdan balanslı bir inkişaf üçün bu təsirlərin düzgün idarə olunması, həm valideynlərin, həm də müəllimlərin diqqət və dəstəyi ilə təmin edilməlidir.*

***Açarsözlər****: ətraf mühit, yeniyetmə qızlar, tərbiyə, sosial mühit, fiziki mühit, ailə təsiri, məktəb mühiti*

---

Azərbaycan Dövlət Pedaqoji Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: fatimekamalqizi2@gmail.com
Daxil oldu: 3 Fevral 2026; Qəbul edildi: 7 May 2026; Onlayn çap edildi: 28 İyun 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BYNC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Impact of the Environmenton the Education of Adolescent Girls and Challenges

**Fatima Agabalayeva**

***Abstract.*** *The role of the environment in the upbringing of adolescent girls is assessed as a multifaceted and complex process. This period is different from both psychological and social points of view, and the family, school and social environment closely interact in the formation of girls' personalities. The family environment, especially in the early years, plays a key role in the formation of girls' emotional stability, value system and behavioral models. Father and mother relationships, parents' upbringing approaches and family structure create conditions for teenage girls to grow up as self-confident, responsible and socially flexible individuals in the future. The school is not only a platform for acquiring knowledge, but also an important environment for socialization, intellectual development and learning norms of behavior within the collective. The school environment develops girls' social skills, leadership potential and ability to adapt to the environment.*

*At the same time, the wider social environment and information space also have a significant impact on the upbringing of teenage girls. The circle of friends, cultural influences, media and digital platforms are considered important factors in the formation of girls' worldview, behavioral models and relationships with society. For a balanced development from a social and psychological point of view, proper management of these influences should be ensured with the attention and support of both parents and teachers.*

***Keywords:*** *environment, adolescent girls, upbringing, social environment, physical environment, family influence, school enviro*

---

Azerbaijan State Pedagogical University, Master's student, Baku, Azerbaijan
E-mail: fatimekamalqizi2@gmail.com
Received: 3 February 2026; Accepted: 7 May 2026; Published online: 28 June 2026
© The Author(s) 2026. This is an open access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Yeniyetməlik dövrü insan həyatının ən çətin və eyni zamanda ən mühüm mərhələlərindən biri sayılır. Bu mərhələdə insan orqanizmi yalnız bioloji deyil, eyni zamanda psixoloji və sosial baxımdan da böyük dəyişikliklərə məruz qalır. Xüsusilə yeniyetmə qızların tərbiyəsi onların gələcəkdə formalaşacaq şəxsiyyəti, sosial rolu, ailə münasibətləri və cəmiyyətə inteqrasiyası baxımından həlledici əhəmiyyət daşıyır. Bu dövrdə verilən tərbiyə və formalaşan dünyagörüş, qızların gələcək həyatına uzunmüddətli təsirlər göstərir. Məhz bu səbəbdən yeniyetməlik çağında olan qızların inkişafı yalnız ailə ilə məhdudlaşmamalı, daha geniş bir çərçivədə ətraf mühitin bütün komponentləri nəzərə alınaraq qiymətləndirilməlidir. Ətraf mühit dedikdə sadəcə fiziki və coğrafi mühit yox, sosial, mədəni və informasiya sahələrinidə əhatə edən kompleks bir anlayış nəzərdə tutulur. Bu mühitə ailə strukturu, məktəb mühiti, dost çevrəsi, qonşuluq, media təsirləri və sosial şəbəkələr də daxildir. Hər bir bu cür faktor yeniyetmə qızların tərbiyəsinə bilavasitə və ya dolayı yollarla təsir göstərir. Məsələn,ailədə gender bərabərliyi prinsiplərinə əməl olunmaması, məktəbdə psixoloji dəstəyin zəif olması və ya sosial mediada qeyri-real gözəllik meyarlarının təbliği qız uşaqlarının psixoloji balansını poza və onların sosiallaşmasında əngəllər yarada bilər.

## Metodlar

Tədqiqatın metodoloji əsasını kompleks yanaşma, sistemli təhlil və emprik tədqiqat metodlarının vəhdəti təşkil edir. Bu yanaşma ətraf mühitin yeniyetmə qızların mənəvi-əxlaqi və psixososial inkişafına təsirini hərtərəfli şəkildə müşahidə etməyə imkan yaradır. Sistemli yanaşma metodu yeniyetmə qızların həyatını onları əhatə edən mikro və makro mühitin inteqral hissəsi kimi dəyərləndirməyə imkan verir, onların inkişafını təcrid olunmuş şəkildə öyrənməyin yanlış nəticələrə gətirə biləcəyini üzə çıxarır. Emprik tədqiqat metodları sorğu, müşahidə, müsahibə metodları vasitəsilə məqalədə əldə edilən nəticələrin elmi dəqiqliyini təmin edir, xüsusən yeniyetmə qızlarla bağlı çağırışlar identifikasiya edilir. Sosioloji və psixoloji analiz yeniyetmə qızların özünüdərketmə, əxlaqi dəyərlərin formalaşması, kənar təsirlərə döümlülüyü müəyyənləşdirilir, müqayisəli metod isə ənənvi mühitlə rəqəmsal mühitin yeniyetmə qızların tərbiyəsinə fərqli təsirlərini araşdırmağa imkan verir.

## Nəticələr

Ana-ata təhsili və valideyn-uşaq münasibətləri yeniyetmə qızların həyatında mühüm formalaşdırıcı amillərdən biridir. Valideynlərin təhsili və dünyagörüşü ailədaxili ünsiyyətin keyfiyyətinə, dəyərlərin ötürülməsinə və tərbiyə üsullarına təsir göstərir (Moreno-Vitoria et al., 2024). Yüksək təhsilli və

maarifçi yanaşmaya sahib valideynlər qız övladlarını müstəqil düşünməyə, məsuliyyətli davranmağa və sağlam həyat tərzi formalaşdırmağa daha çox təşviq edirlər (Duffey, 2021). Bununla yanaşı, ailə daxilində sevgi və hörmət üzərində qurulan münasibətlər yeniyetmənin özünə inamını artırır, emosional sabitliyini qorumağa kömək edir və sosial fəaliyyətlərə aktiv şəkildə qatılmasını təmin edir (Janighorban et al., 2022).

İctimai mühitin müsbət olması – təhlükəsizlik, sosial dəstək və bərabər imkanların mövcudluğu – yeniyetmə qızların inkişafında əhəmiyyətli rol oynayır (Ji, 2023). Təhlükəsiz küçələr, ictimai məkanda gender bərabərliyinə hörmət və gənclərin fəaliyyət göstərə biləcəyi sağlam məkanlar onların fiziki aktivliyini, ictimai əlaqələrini və yaradıcılıq potensialını artırır. Belə bir mühitdə böyüyən qızlar həm fiziki cəhətdən sağlam, həm də psixoloji baxımdan balanslı olurlar (Chaplin, 2022).

Məktəb mühiti də yeniyetmələrin psixoloji rifahı və sosial bacarıqlarının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir (Zhao & Zhao, 2022). Müəllim-şagird münasibətlərində hörmət və dəstəyin olması, inklüziv və ayrı-seçkilikdən uzaq yanaşma yeniyetmə qızların təhsil mühitinə bağlılığını gücləndirir (National Academiesof Sciences, Engineering and Medicine.). Pozitiv məktəb atmosferi qızların öz potensialına inanmasına, liderlik və ünsiyyət bacarıqlarının inkişafına şərait yaradır (Chaplin, 2022). Duyğusal dəstək, həmyaşıdlarla sağlam münasibətlər və məktəb tədbirlərində fəal iştirak onların gələcək sosial adaptasiyası üçün möhkəm baza formalaşdırır (Lyu, 2025).

Məktəb mühitinin akademik tərəfi də yeniyetmə qızların intellektual inkişafında mühüm yer tutur (Sathyabama & Gnanajane Eljo, 2014). Müxtəlif fənlər üzrə tədris prosesinin keyfiyyətli təşkili, yaradıcı layihələr və elmi- texniki fəaliyyətlərdə iştirak imkanları onların düşünmə qabiliyyətini, problem həll etmə bacarığını və tənqidi yanaşma vərdişlərini inkişaf etdirir (eng, Z. 223). Əlavə olaraq, məktəb daxilində keçirilənidman, incəsənət və ictimai fəaliyyətlər qızların həm fiziki, həm də sosial potensialını reallaşdırmasına imkan yaradır. Bu cür fəaliyyətlər eyni zamanda liderlik bacarıqlarının formalaşmasına, komanda ruhunun güclənməsinə və məsuliyyət hissinin dərinləşməsinə şərait yaradır (Zhou, 2025).

**Cədvəl 1**

*Yeniyetmə qızların inkişafina təsir edən əsas amillər və təsir sahələri*

| Faktorlar | Alt-amillər | Təsir sahəsi | Yeniyetmə qızlara təsiri |
|---|---|---|---|
| Valideyn və ailə | Valideynlərin təhsili və dünyagörüşü | Ailədaxili ünsiyyətin keyfiyyəti, dəyərlərin ötürülməsi | Müstəqil düşünmə, məsuliyyətli davranış, sağlam həyat tərzi formalaşması (Moreno-Vitoria et al., 2024; Duffey, 2021) |
| | Sevgi və hörmət üzərində qurulan münasibətlər | Emosional dəstək və təhlükəsizlik | Özünə inamın artırılması, emosional sabitlik, sosial fəaliyyətlərdə aktivlik (Janighorban et al., 2022) |
| İctimai mühit | Təhlükəsiz küçələr, bərabər imkanlar, sosial dəstək | Fərdi və sosial təhlükəsizlik, yaradıcılıq mühiti | Fiziki sağlamlıq, psixoloji balans, sosial əlaqələrin inkişafı (Ji, 2023; Chaplin, 2022) |
| Məktəb mühiti | Müəllim-şagird münasibətləri | Hörmət, dəstək, inklüziv mühit | Təhsil mühitinə bağlılıq, liderlik və ünsiyyət bacarıqlarının inkişafı, gələcək sosial adaptasiya (Zhao & Zhao, 2022; Lyu, 2025; Chaplin, 2022) |

| | | |
|---|---|---|
| Akademik proqramlar, elmi və texniki layihələr | İntellektual inkişaf, problem həll etmə bacarığı | Tənqidi düşüncə, yaradıcı yanaşma, elmi marağın inkişafı (Sathyabama & Gnanajane Eljo, 2014) |
| İdman, incəsənət və ictimai fəaliyyətlər | Fiziki və sosial bacarıqlar | Liderlik bacarıqlarının formalaşması, komanda ruhu, məsuliyyət hissinin güclənməsi (Zhou, 2025) |

*Mənbə.* Moreno-Vitoria, L., Cabeza-Ruiz, R., & Pellicer-Chenoll, M. (2024). *Parental education and adolescent development*. Journal of Youth Studies.

## Müzakirə

Yeniyetmə qızların həyatında təsir edən əsas amillər ailə, ictimai mühit və məktəb kimi üç əsas sahəyə bölünür. Ailə mühiti, valideynlərin təhsili, dünyagörüşü və tərbiyə yanaşmaları vasitəsilə yeniyetmələrin şəxsiyyətinin formalaşmasında əsas rol oynayır. Yüksək təhsilli və maarifçi valideynlər qız övladlarını məsuliyyətli, müstəqil düşünən və sağlam həyat tərzinə malik fərdlər kimi yetişdirməyə təşviq edirlər. Eyni zamanda, ailə daxilində sevgi və hörmət üzərində qurulan münasibətlər yeniyetmələrin özünə inamını gücləndirir, emosional sabitlik qazandırır və sosial fəaliyyətlərdə daha aktiv olmalarına imkan yaradır. Bu amillər qızların psixoloji sağlamlığına və gələcəkdə cəmiyyətdə uğurlu sosial adaptasiyasına birbaşa təsir göstərir (Moreno-Vitoria, 2024).

İctimai mühit yeniyetmə qızların inkişafında əhəmiyyətli rol oynayan digər mühüm sahədir. Təhlükəsiz küçələr, gender bərabərliyinə hörmət, sosial dəstək və bərabər imkanların mövcudluğu onların fiziki fəaliyyətini, ictimai əlaqələrini və yaradıcılıq potensialını artırır. Belə mühitdə böyüyən qızlar həm fiziki cəhətdən sağlam, həm də psixoloji baxımdan balanslı olur, sosial bacarıqlarını inkişaf etdirir və müxtəlif ictimai təşəbbüslərdə fəal iştirak edə bilirlər (Ji, 2023; Chaplin, 2022).

Məktəb mühiti yeniyetmə qızların sosial, emosional və intellektual inkişafında mühüm təsir göstərir. Müəllim-şagird münasibətlərində hörmət və dəstəyin olması, inklüziv yanaşma və ayrı-seçkilikdən uzaq mühit onların məktəbə bağlılığını gücləndirir, öz potensialına inamını artırır və liderlik, ünsiyyət bacarıqlarını inkişaf etdirir. Duyğusal dəstək, həmyaşıdlarla sağlam münasibətlər və məktəb tədbirlərində fəal iştirak onların gələcək sosial adaptasiyası üçün möhkəm baza yaradır (Zhao, & Zhao, 2022; Lyu, 2025; Chaplin, 2022). Akademik tərəfdə isə müxtəlif fənlər üzrə keyfiyyətli tədris, yaradıcı layihələr və elmi-texniki fəaliyyətlərdə iştirak imkanları onların problem həll etmə, tənqidi düşüncə və yaradıcı yanaşma vərdişlərini inkişaf etdirir (Sathyabama & Gnanajane Eljo 2014).

Əlavə olaraq, məktəb daxilində idman, incəsənət və ictimai fəaliyyətlər qızların fiziki və sosial bacarıqlarını reallaşdırmasına şərait yaradır. Bu fəaliyyətlər onların liderlik bacarıqlarının formalaşmasına, komanda ruhunun güclənməsinə və məsuliyyət hissinin dərinləşməsinə kömək edir. Fərqli sahələrdə aktiv iştirak yeniyetmələrin sosial bacarıqlarını artırır və onları cəmiyyətdə fəal iştirak etməyə hazırlayır (Zhou, 2025).

## Nəticə

Ətraf mühitin yeniyetmə qızların tərbiyəsinə təsiri çoxşaxəli və mürəkkəb bir prosesdir. Bu təsir yalnız ailə və məktəblə məhdudlaşmır, eyni zamanda sosial, mədəni və informasiya mühitindəki dəyişikliklər, texnologiyanın rolu və cəmiyyətin genderə münasibəti ilə də birbaşa bağlıdır. Qız uşaqlarının psixoloji və mənəvi inkişafı, özünə inamı, sosial bacarıqları və gələcəkdə cəmiyyətə inteqrasiyası, yaşadıqları mühitin onlara verdiyi imkanlar və maneələrlə sıx bağlıdır. Əgər bu mühit təhlükəsiz, dəstəkləyici, gender bərabərliyinə əsaslanan və emosional baxımdan sağlamdırsa,

yeniyetmə qızlar şəxsiyyət kimi daha sağlam formalaşır, təhsil və cəmiyyət həyatında daha fəal iştirak edirlər. Əksinə, zorakılıq, laqeydlik, stereotiplər və sosial təzyiq kimi neqativ faktorlar onların inkişafına əngəl yaradır, psixoloji travmalara və sosial təcridə səbəb ola bilər. Buna görə də ailə, məktəb, media, dövlət və qeyri-hökumət qurumları birlikdə çalışaraq, yeniyetmə qızlara yönəlmiş milli tərbiyə strategiyalarını inkişaf etdirməli, müasir çağırışlara cavab verən inklüziv, genderə həssas və humanist yanaşmaları təşviq etməlidirlər.

**Ədəbiyyat**


1. Chaplin, T., Mauro,M., K. L., & Niehaus, C. E. (2022). Effects of parenting environment on child and adolescent functional activation. In R. Sinha & P. Klaus (Eds.), *Neuroscience of Social Stress* (Vol. 54). Springer, 341-372. https://doi.org/10.1007/7854_2021_276
2. Chaplin, T. M. (2022). *Effects of parenting environment on child and adolescent development*. National Center for Biotechnology Information (NCBI).
3. Duffey, K., Barbosa, A., Whiting, S., Mendes, R., Yordi Aguirre, I., Tcymbal, A., Abu-Omar, K., Gelius, P., & Breda, J. (2021). Barriers and facilitators of physical activity participation in adolescent girls: A systematic review of systematic reviews. *Frontiers in Public Health*, *9*, Article 743935. https://doi.org/10.3389/fpubh.2021.743935
4. Janighorban, M., Boroumandfar, Z., Pourkazemi, R., & Mostafavi, F. (2022). Barriers to vulnerable adolescent girls' access to sexual and reproductive health. *BMC Public Health*, *22*, Article 2212. https://doi.org/10.1186/s12889-022-14687-4
5. Ji, X. (2023). How family environment influence the social role of female adolescents. *Journal of Education, Humanities and Social Sciences*, *12*, 247–253. https://doi.org/10.54097/ehss.v12i.7648
6. Lyu, N., Xue, Q.-Y., Li, X., Yan, S., Chen, M., Hou, H., Luo, D., Qian, C., Zhang, P., Zhou, Y., & Yang, B. X. (2025). The role of family environment and parental factors: A person-oriented study of adolescents' psychological distress and help-seeking patterns. *Child and Adolescent Psychiatry and Mental Health*, *19*(1), Article 86. https://doi.org/10.1186/s13034-025-00986-2
7. Moreno-Vitoria, L., Cabeza-Ruiz, R., & Pellicer-Chenoll, M. (2024). Factors that influence the physical and sports participation of adolescent girls: A systematic review. *Apunts Educación Física y Deportes*, *157*, 19–30. https://doi.org/10.5672/apunts.2014-0983.es.(2024/3).157.03
8. National Research Council, & Institute of Medicine. (2011). The influence of environment. In *The science of adolescent risk-taking: Workshop report*. National Academies Press, 51-74.
9. Sathyabama, B., & Gnanajane Eljo, J. O. J. (2014). Family environment and mental health of adolescent girls. *International Journal of Humanities and Social Science Invention*, *3*(9), 46–49.
10. Zeng, Z. (2023). The influence of parental rearing styles on adolescents' psychological development. *Lecture Notes in Education Psychology and Public Media, 14*, 21–26. https://doi.org/10.54254/2753-7048/14/20230925.
11. Zhao, L., & Zhao, W. (2022). Impacts of family environment on adolescents' academic achievement: The role of peer interaction quality and educational expectation gap. *Frontiers in Psychology*, *13*, Article 911959. https://doi.org/10.3389/fpsyg.2022.911959
12. Zhou, Y. (2025). The influence of family environment on adolescent mental health. In *Proceedings of the 2025 6th International Conference on Mental Health, Education and Human Development (MHEHD 2025)* (Vol. 854). Atlantis Press, 211-218. https://doi.org/10.2991/978-94-6463-863-3_22